# Gözəl təbiət, əlverişli relyef, müalicəvi turizm, zəngin mineral sular

**Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, 25 noyabr Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.**

Qırx dörd günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Milli Ordumuz qəhrəmanlıq göstərərək Ermənistanı kapitulyasiya aktını imzalamağa məcbur etdi və bununla da 1990-cı illərin əvvəlindən işğal altında olan tarixi yurd yerlərimiz azad edildi. Təcavüzkar ölkə olan Ermənistan Kəlbəcər, Laçın rayonlarını və Ağdam rayonunun işğal altında qalan hissəsini bir güllə atılmadan mərhələli şəkildə boşaltdı.

Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal olunmuşdu.

Kəlbəcər rayonunun ərazisinə daxil olan kimi erməni vandalizminin izləri insanı vahiməyə salır. Bəşər tarixində görünməmiş vandallığı ilə seçilən ermənilərin törətdiyi vəhşiliklər tarix boyu unudulmayacaq. İşğal altında olan bütün yurd yerlərimiz kimi Kəlbəcər rayonu da tamamilə talan edilib. Hətta məğlub olduqdan sonra da əzəli torpaqlarımızı boşaldarkən yurd yerlərimizdə talançılıqdan əl çəkmədilər.

Prezident İlham Əliyevin sərəncamları ilə Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirən Silahlı Qüvvələrimizin 9455 hərbi qulluqçusu "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub.

Kəlbəcər şəhərində ümumi yaşayış fondu 488 min $m^2$ təşkil edəcək ki, bunun da böyük hissəsi (421 min $m^2$) fərdi yaşayış evlərinin, 46 min $m^2$-i isə ortamərtəbəli yaşayış binalarının payına düşəcək. Ümumən 2040-cı ilədək əhalinin 4250 mənzillə (adambaşına 25 $m^2$) təmin olunması nəzərdə tutulub.

Şəhərdə, həmçinin ilkin olaraq 4 məktəb (960 şagird yerlik), 4 uşaq bağçası (520 yerlik), 2 xəstəxana (160 çarpayılıq), 1 reabilitasiya mərkəzi (150 çarpayılıq), İşğal və Zəfər muzeyləri, mehmanxanalar, müxtəlif ictimai-iaşə obyektləri və idman meydançalarının tikintisi planlaşdırılır.

Şəhər ərazisinin 22 faizi yaşıllıqlardan ibarət olacaq, yeni 60 ha sahədə fərqli yaş və sosial qruplar üçün yaşıllıq zolaqları yaradılacaq. Beləliklə, ölkənin digər şəhərlərində ümumi istifadədə olan yaşıllıq sahəsinin adambaşına düşən norması 7-10 $m^2$ nəzərdə tutulduğu halda, Kəlbəcər şəhərində bu göstərici 33 $m^2$ təşkil edəcək.

Kəlbəcər şəhərinin ilk yaşayış məhəlləsinin təməli 2023-cü il may ayının 27-də Prezident İlham Əliyevin rayona səfəri zamanı qoyulub. Şəhərin daxili yollarının 4 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-4 ədəd, eni 3-3,5 metr, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 0.7-1,5 metr, piyada zolağının eni 2-4 metr, tramvay zolağının eni isə 4 metr təşkil edəcək.

Kəlbəcər şəhərinin ilk yaşayış məhəlləsini əhatə edən 6 kilometr uzunluğunda daxili yollarda yol yatağının tikintisi başa çatıb, hazırda təqribən 3.6 kilometr hissədə torpaq işləri həyata keçirilir.

Bundan başqa, küçələr boyu Kəlbəcər şəhərinin kommunikasiya xətlərinin (su, kanalizasiya, yağış suları boruları, qaz, rabitə və elektrik xətləri) tikintisi işlərinin də icrası artıq yekunlaşmaq üzrədir.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Kəlbəcər şəhərinin daxili yollarının tikintisi layihəsinin 2026-cı ildə başa çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq, şəhərin enerji təminatı bərpaolunan enerji potensialından istifadə edilməklə həyata keçiriləcək. Əhalinin içməli su təminatı isə Ağçayın su mənbələri hesabına ödəniləcək.

Kəlbəcər şəhərinin iqtisadi inkişafında xidmət (xüsusən turizm) və kənd təsərrüfatı sektorları böyük rol oynayacaq. Şəhər yenidən qurulan "İstisu" sanatoriyasına yaxın ərazidə yerləşdiyindən burada müalicəvi turizmin inkişafına təkan verəcək obyektlər də inşa olunacaq. Bütün bunlar isə əhalinin dayanıqlı məşğulluğuna əlverişli zəmin yaradacaq.

Ermənistanın işğalından azad edilmiş bütün ərazilərimiz kimi, Kəlbəcər rayonu da özünün yeni mərhələsini yaşayır. Böyük Qayıdış konsepsiyasına uyğun olaraq rayonda geniş quruculuq-bərpa aparılır. Bu məqsədlə Yanşaq kəndində ümumilikdə 421 ailənin məskunlaşması planlaşdırılır. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 121 hektardan çox torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 218 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 218 evin 50-si ikiotaqlı, 112-si üçotaqlı, 41-i dördotaqlı və 15-i beşotaqlı olacaq. Burada, həmçinin 264 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək. Bununla yanaşı, Kəlbəcər rayonunun Zallar kəndində ümumilikdə 487 ailənin məskunlaşması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 350 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası aparılacaq.

Kəlbəcər 1930-cu ildə inzibati rayon statusu alıb və ölkəmizin ən yüksək dağ rayonu olaraq ərazisi faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngindir. Sənaye əhəmiyyəti olan civə ehtiyatları rayondakı Şorbulaq və Ağyataqda yerləşir.

Rayon ərazisində qızıl yataqları, sənaye əhəmiyyətli ehtiyatları 200 tondan çox olan civə, mişar daşı istehsalına yararlı tuf, kərpic istehsalına yararlı gil, yüngül beton doldurucusu kimi istifadə olunan perlit, üzlük daş, qum-çınqıl qarışığı, gözəl dekorativliyə malik 4 mərmər, 1 obsidian (dəvə gözü), 1 listvenit yataqları vardır.

Kəlbəcərdə olan qızıl yataqları ölkədə bu sahədə yeni inkişaf templərinə səbəb olacaq. Rayonun yeni qızıl yataqlarının istismara verilməsi gələcəkdə "sarı metal"ın hasilatını nəzərə alsaq, dünya bazarında qızılın qiymətinin qalxması, Azərbaycan üçün müsbət tendensiya olacaqdır. Qeyri-neft sektorunda üç lider məhsuldan biri hesab olunan qızılın ixracı Zəngilan və Kəlbəcər rayonlarının potensialından səmərəli istifadə edikdən sonra daha da artacaqdır.

Kəlbəcərin turizm sahəsinin inkişafı üçün gözəl təbiəti, əlverişli relyefi, zəngin mineral suları ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət daşıyır. Yuxarı və Aşağı İstisu kimi çox böyük müalicəvi təsirə malik mineral su yataqları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Bu su ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkündür. İstisu bulağı üstündə 1980-ci illərdə iri kurort və mineral sudoldurma zavodu tikilib. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi. Rayonun İstisu qəsəbəsində sanatoriyalar fəaliyyət göstərirdi. Orada hər il 50 mindən artıq insan müalicə olunur, eyni zamanda istirahət edirdi. Bu sanatoriyaların yenidən bərpası və fəaliyyət göstərməsi bura olan turist marağını artıracaq.

Həm də Kəlbəcər rayonu turistlərdə maraq yaradacaq tarixi abidələrlə zəngindir. Burada alban dövrünə aid xeyli tarixi abidələr var. Ağdaban kəndinin də qədim alban tayfasının adını daşıdığı güman edilir. Erməni vandallığı tarixi abidələrimizə zərər vurmaqla öz vəhşiliklərini dünyaya göstərib. Sübut olunub ki, bu tarixi abidələr bu torpaqlar heç zaman onların olmayıb. Kəlbəcər ərazisindəki qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarıdır.

Tarixən rayonun kənd təsərrüfatında, əsasən heyvandarlıq və əkinçilik yer tutub. Torpaq örtüyünün əmələ gəlməsində relyef və iqlim mühüm rol oynayır, Kəlbəcər rayonunun relyefi də daha çox heyvandarlıq sahəsinin inkişafı üçün əlverişlidir. Yay otlaqları kimi istifadə edilən dağ çəmənlikləri geniş ərazini tutur. Rayonda, əsasən çimli dağ-çəmən və qonur dağ-meşə torpaqları yayılıb. Kəlbəcərin orta dağlıq və dağətəyi ərazilərində iqlim şəraitinə uyğun olaraq dəmyə əkinçiliyi, bağçılıq, üzümçülük, tərəvəzçilik və tütünçülüyü inkişaf etdirmək olar. Yüksək dağlıq ərazilərin əhəmiyyəti ondan ibarətdir ki, iqlim şəraiti və dağ-çəmən torpağından yaylaq kimi istifadə oluna bilər. Meşələrin ümumi sahəsi 30 min hektara yaxındır.

Nazirlər Kabinetinin 1 may 2024-cü il tarixli, 235 nömrəli Qərarına əsasən, "Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı" təsdiq edilib.

Qeyd olunub ki, otuzillik erməni işğalı nəticəsində dağıdılan Kəlbəcər şəhərinin Baş Plan konsepsiyası işğal dövründən əvvəlki vəziyyəti və ərazinin relyefi, tarixmemarlıq ənənələri nəzərə alınmaqla tərtib edilib.

Kəlbəcər şəhərinə sakinlərin qayıdışının yaxın vaxtlarda həyata keçirilməsi nəzərdə tutulub. İlk mərhələdə 13 minə yaxın insanın köçürülməsi planlaşdırılır. Tədbirlər Planına əsasən, əhalinin geri qayıdışının və ərazilərə inteqrasiyasının təmin edilməsi fəaliyyət istiqaməti üzrə rayonda 2026-cı ilədək 3 500 evin (2 000 fərdi yaşayış evinin və 1 500 mənzilin) tikilərək istismara verilməsi nəzərdə tutulur.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**